Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Faciəli ömrün qəmli dastanını yazan ədib

Süleyman Vəliyevin 105 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı – 2021**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
Əməkdar *mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

Faciəli ömrün qəmli dastanını yazan ədib**:** Süleyman Vəliyevin 105 illik yubileyi münasibətilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait / tərt.ed. A.Əliyeva; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2021. - 21s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Tərtibçidən

1937-ci il Azərbaycanda repressiyaların tüğyan etdiyi tarixdir. 1920-ci ildən başlayan və 1937-ci ildə milli fəlakət və faciə şəklində bütün respublikanı bürüyən repressiya qurbanlarının sayı dəqiq məlum deyil. Lakin o aydındır ki, bəzi istisnalar nəzərə alınmasa, güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arasında min bir işgəncə ilə qətlə yetirilənlərin böyük əksəriyyəti Sovet rejimi, kommunist ideologiyası və mövcud quruluşa qarşı real və ciddi təhlükə yarada biləcək güc və zəka sahibləri idi.

Bu qəbildən olan bir çox ziyalının, şair, yazıçı, publisistin həyat və yaradıcılıq yolu tədqiq edilsə də, bu problemlə bağlı kitab və məqalələr yazılsa da, fikrimizcə, hələ görüləcək işlər çoxdur. Nə qədər ağır və acı olsa da, bizdə olan məlumata görə, vaxtı ilə müvafiq instansiyalara müraciət edilmədiyindən Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində misilsiz xidmətlər göstərmiş bir çox repressiya qurbanı üzərindən hələ də qərəzli məhkəmə qərarı götürülməmiş və onlar bu gün də rəsmən bəraət almamışlar.

Repressiya burulğanının dəhşətli üzünü birə-bir yaşayan istedadlı qələm sahiblərindən biri Süleyman Vəliyevdir. Süleyman Vəliyev Azərbaycan ədəbiyyatında repressiya həqiqətlərindən söz açan ilk memuar əsər müəllifidir. Süleyman Vəliyevin əsərləri qədər həyatında da insanların mənəvi tərbiyəsinə təsir göstərən amillərin olması yüksək mənəviyyat xəzinəsidir, insanları haqqa, ədalətə, doğruluğa və ən əsası, ruhani yüksəkliyə aparan yolun istiqaməti kimi dəyərli və qiymətlidir. Dəyərli sənətkarımız Süleyman Vəliyevin bu il 105 yaşı tamam olur. Bu münasibətlə hazırladığımız vəsait iki hissədən ibarətdir. I hissə **“Fərqli ömür insanı Süleyman Vəliyev”** adlanır. Vəsaitdə istedadlı yazarın həyat və yaradıcılığından bəhs edilir. **“Süleyman Vəliyev dünyası”** adlanan II hissədə isə onun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Vəliyev Süleyman Vəli oğlu-nasir, 1939-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Əməkdar mədəniyyət işçisi (1977), əmək veteranı (1976), Əməkdar İncəsənət xadimi (1987), müharibə veteranı (1981). 1916-cı il dekabrın 21-də Bakı yaxınlığındakı Ramana qəsəbəsində anadan olmuşdur. Ramanada səkkiz illik məktəbi yüksək qiymətlərlə bitirmiş və dövrün qabaqcıl məktəblərindən sayılan "Qulam şqolası"nda təhsilini tamamlaya bilmişdir. Neft mərkəzi olan Sabunçu rayonunda ədəbiyyat, dram və musiqi dərnəkləri fəaliyyət göstərirdi. Bütün bunlar barədə S.Vəliyev sonralar həmin məktəbin müdiri haqqında qələmə aldığı "Qulam müəllim" oçerkində bəhs etmişdir. Lökbatanda çoxtirajlı "Neft uğrunda" qəzetinin, "Kommunist","Azərbaycan gəncləri" qəzetlərinin, "İnqilab və mədəniyyət" jurnalının redaksiyalarında ədəbi işçi olmuşdur. Azərbaycan Yazıçılar Birliyində ölkə müdafiə ədəbiyyatı şöbəsinin müdiri vəzifəsində işləmişdir. İkinci Dünya müharibəsi illərində Almaniya, Yuqoslaviya və İtaliyada Müqavimət hərəkatında iştirak etmişdir. Repressiyaya məruz qalmışdır. 1949-cu illərdə M.F.Axundov adına Pedaqoji İnstitutda təhsil almışdır. Arabir işləməyib yaradıcılıqla məşğul olmuşdur. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor vəzifəsində çalışmışdır (1958-1963). Azərbaycan Yazıçılar Birliyində məsləhətçi işləmişdir (1963-1987). Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin, "Azərbaycan" jurnalı redaksiya heyətinin, Azərbaycan Ədəbiyyat Fondu Rəyasət Heyətinin üzvü olmuşdur. SSRİ Yazıçılar Birliyinin VI və VII qurultaylarının nümayəndəsi olmuşdur. "Əmanət kassası" adlı ilk hekayəsi 1932-ci ildə "Hücum" jurnalında çapdan çıxmışdır. İlk povesti isə "Bığlı ağa" (1937) adlanır. Yazıçı bu vaxtdan etibarən dövri mətbuatda müntəzəm çıxış etmişdir. Azərbaycanın Günahsız Siyasi Qurbanları Assosiasiyası Rəyasət Heyətinin üzvü olmuşdur. (1994-cü ildən). Onun əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının

dillərinə də tərcümə olunub. Bədii yaradıcılığında tərcümə də mühüm yer tutub. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1967-1986), “Xalqlar dostluğu” ordeni (1984) və medallarla təltif olunmuşdur.

1996-cı il martın 7-də Bakıda vəfat etimşdir. Burada II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Xalqımızın görkəmli qələm sahibi Süleyman Vəliyevin 105 illik yubileyi ilə əlaqədar olaraq, mövcud qlobal problem pandemiya qaydalarına uyğun şəkildə təşkil olunan bir sıra tədbirlər; kitab müzakirəsi, oxucularla söhbət, konfrans, icmal, dəyirmi masa, rəsm və şeir müsabiqəsi, səhnəcik, konfrans və s. keçirilə bilər. Bu böyük şəxsiyyətin yaradıcılığını, ölkəmizə olan qayğı və xidmətlərini gənc nəslə və oxuculara çatdırmaq məqsədilə kitabxanada virtual olaraq kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin müxtəlif illərdə çəkilmiş foto stendi, kitabları ilə yanaşı ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövrü mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “Azərbaycan ədəbiyyatında repressiya həqiqətlərindən söz açan ilk memuar əsər müəllifi-Süleyman Vəliyev”, “Tale məktubları”, “Arxaya açılan aynadakılar”, “Adsız məzarların hekayəti”, “Tarixin ağ ləkələri”, “Talelər və adamlar”, “Xalq üçün ömrünü şam kimi əridən ədib”, “Nakam ömrün səhifələri”, “Fərqlilər”, “Repressiyanın məngənəsində Süleyman Vəliyev qələmi”, “Əsrin nakam insanları” və s.

Süleyman Vəliyevin yubileyi ilə əlaqədar bir sıra virtual tədbirlər keçirilə bilər. Zoom proqramı vasitəsilə şagirdlər arasında keçirilən tədbirlərdən biri də *“Süleyman Vəliyev yaradıcılığı”* adlanan **oxucularla söhbət**dir. Söhbətə oxucularla yanaşı məktəb müəllimləri və yazarlar da onlayn olaraq dəvət olunur. Oxucularla söhbət zamanı Süleyman Vəliyevin əsərlərində vətənpərvərlik, elm, maarif və bir sıra məsələlərinə münasibət müzakirə olunur. İlk olaraq kitabxanaçı tədbirə onlayn olaraq qoşulan

qonaqlara və iştirakçılara səlis qələm sahibi S.Vəliyevin həyat və yaradıcılığından söhbət açır:

Kitabxanaçı: Süleyman Vəliyev XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, gözəl romanlar, povestlər, hekayələr müəllifidir. Sovet dönəmində yaşamış, dövrün ağrı-acılarını da, ziddiyyətlərini də görmüş, yaradıcılığında əks etdirmişdir. II Dünya müharibəsinin iştirakçısı olmuş, əsirlik həyatı çəkmiş, alman düşərgəsindən qaçaraq faşizmə qarşı müqavimət hərəkatında vuruşmuş və ədəbiyyatımızda bu hərəkatı əks etdirən ilk romanın “Mübahisəli şəhər” kitabının müəllifi olmuşdur. Müharibədən sonra ədalətsiz olaraq repressiyaya məruz qalmış, Sibirə sürgün olunmuş, mənəvi əzab və yaşantılarını hekayələrində, “Düyünlər” romanında qələmə almışdır. S.Vəliyev Azərbaycan ədəbiyyatında repressiya həqiqətlərindən söz açan ilk memuar əsərin “Qanadı qırıq quş da uçarmış” kitabının müəllifidir. Ümumən yazıçının yaradıcılığı sovet dövründə Azərbaycan xalqının həyatının bütün mərhələlərini ümumiləşmiş şəkildə əks etdirir.

“Neft Bakısı”nın uşaqlıq xatirələri Süleyman Vəliyevin “Şor cüllütü” (1939) povestində də əksini tapmışdır. Povestdə XX əsrin əvvəlləri neft Bakısının səciyyəvi obrazını görə bilirik. Mədən sahibi Musanın surətində ağa sinfinin firavan həyatı, zəngin məişəti, psixologiyası və əxlaqı təsvir olunursa, mədən fəhləsi Qulunun timsalında kasıb təbəqənin ağır həyatı, yarıac, yarıtox yaşayışı, həyat uğrunda mübarizəsi qələmə alınmışdır.

Süleyman Vəliyevin yaradıcılığında dil açıb danışan canlı həyat epizodları, süjetləri idi. İlk hekayəsi “Əmanət kassası” 1932-ci ildə “Hücum” jurnalında çap olunan S.Vəliyev dövrün ədəbi prosesinə istedadlı gənc yazıçı kimi qədəm qoymuş, “fəhlə kadrı” kimi rahat qəbul olunmuşdur. 1937-ci ildə hərbi qulluğa çağırılana qədər məhz istedadlı qələm sahibi kimi Lökbatanda çıxan aztirajlı “Neft uğrunda” qəzetində, bir müddət “Azərbaycan gəncləri”, “Kommunist” qəzetlərində müxbir olmuş, “İnqilab və mədəniyyət” jurnalında ədəbi işçi kimi fəaliyyətə başlamışdır. 21

yaşında ikən, 1937-ci ildə qələmə aldığı, inqilabi fəhlə hərəkatından bəhs edən “Bığlı ağa” povesti “Azərnəşr”də ayrıca kitab şəklində çapdan çıxdıqdan sonra imzası ədəbi mühitdə parlamış və birdəfəlik olaraq taleyini ədəbiyyata bağlamışdır.

Süleyman Vəliyevin sovet dönəmində uğurla başlayan həyat və yazıçılıq bioqrafiyası çox keçmir ki, keşməkeşlərlə üzləşir. Əslində, həyatının hər mərhələsində örnək olan insan xarakteri yaşayan və bunun bədii obrazını yaradan ədibi zaman özü sınağa çəkir, stalinizm epoxasının və qatı sovet ideologiyasının amansız zərbələrinə məruz qoyur. 1937-1939-cu illərdə Ukraynada hərbi xidmətdə olan Süleyman Vəliyev Böyük Vətən müharibəsi başlayan kimi, 1941-ci il iyun ayının 23-də hərbi komissarlığa ərizə ilə müraciət edib cəbhəyə gedir. 1941-ci il iyunun 29-da “Ədəbiyyat qəzeti” ndə yazıçıların xalqa ünvanlanmış “Qəhrəman ordu sıralarına” adlı müraciətinin altında görkəmli yazıçılarla yanaşı gənc Süleyman Vəliyevin də imzası var idi.

S.Vəliyev azərbaycanlıların məşhur 416-cı milli diviziyasının tərkibində Şimali Qafqazda, daha sonra Kerç yarımadasında vuruşur, 1942-ci ilin may ayının 8-də kontuziya olub Krım yaxınlığında əsir düşür. Bu zaman o, 416-cı Azərbaycan diviziyasının “Azərbaycan döyüşçüsü” adlı qəzetində hərbi müxbir kimi fəaliyyət göstərmişdir. Yüz minlərlə əsirlər kimi düşərgədən düşərgəyə düşən yazıçı Almaniyanın dərinliklərinə doğru aparılır. 1944-cü ilin yazında S.Vəliyev müttəfiqlərin ağır bombardmanı zamanı düşərgədən qaçıb Triyest vilayətinin dağlarında məskən salmış partizan dəstələrinə qoşulur, burada Sila adı ilə cəsur döyüşçü və qisasçı kimi qəhrəmanlıqlar göstərir. Sovet İttifaqı Qəhrəmanları Mehdi Hüseynzadənin, Mirdaməd Seyidovun keçdiyi müqavimət hərəkatını əli qələmli Süleyman Vəliyev də keçir. Yazıçının “Kerç səhəri” povestində, bir çox hekayələrində “Mənə “sən” de”, “Çörək”, “Zorən qoca”, “Qurtuluş”, “Həyatın dadı”, “Gözlənilməyən məktub” və s. döyüş cəbhələrində yaşanan müharibə həqiqətləri real boyalarda əksini tapmışdır. Bununla belə, yazıçının müharibə mövzusunda ən böyük uğuru “Mübahisəli şəhər”

romanı hesab olunur. Bu, qeyd olunduğu kimi, Azərbaycan ədəbiyyatında II Dünya müharibəsində müqavimət hərəkatını işıqlandıran ilk romandır. 1946-1947-ci illərdə yazılıb, yalnız 1957-ci ildə çap oluna bilən əsərin taleyi də müəllifinin bioqrafiyası kimi keşməkeşlidir. Roman hadisələrin birbaşa izi ilə, prototipi yazıçının özü olmaqla Aslanın gizli partizan fəaliyyətini, əsirlikdən necə qurtulmasını, Yuqoslaviyada Triqlava dağlarında, Triyest şəhərində şücaətlərini, rus, sloven, azərbaycanlı və s. Millətlərdən olmaqla faşizmə qarşı xalqların birgə mübarizəsini olmuş əhvalatlar, maraqlı bədii intriqalar, təsvirlər vasitəsilə oxucuya çatdırır. Milli vətənpərvər Aslanın obrazı ilə yanaşı, romanda Sila, Zora, Anita, Pavlo, Rade, Avqust, Çuq və b. rəngarəng obrazlar yaradılmışdır. Əfsanəvi Mixaylodan bəhs edən Həsən Seyidbəyli və İmran Qasımovun "Uzaq sahillərdə" əsərindən əvvəl yazılmış, "hərbi-vətənpərvərlik ədəbiyyatının incisi" sayılan "Mübahisəli şəhər"in ilk dəfə 1957-1958-ci illərdə "Azərbaycan" jurnalında çap olunması yazıçının müharibədən sonra repressiyaya uğraması ilə bağlı idi. Əsər 1948-ci ildə tamamlanmışdır. "Bakinski raboçi" qəzetinin 1948-ci il 8 fevral tarixli sayında xalq şairi Süleyman Rüstəm bir məqaləsində digər əsərlər sırasında "Mübahisəli şəhər" romanının da adını çəkmişdir. Lakin çap olunduqdan sonra da roman maneə zolağına tuş gəlir. Yuqoslaviya-sovet əlaqələrində soyuqluq yarandığına görə kitab şəklində çapına icazə verilmir. Yalnız 1961-ci ildə roman Moskvada rus dilində çıxdıqdan sonra 1962-ci ildə Azərnəşr tərəfindən kitab şəklində işıq üzü görür. Elə həmin il "Moskvada çap olunan "Məlumat bürosunda deyilməyənlər haqqında" adlı kitabda (Dövlət Siyasi Ədəbiyyat Nəşriyyatı) S.Vəliyevin də adı faşizmə müqavimət hərəkatı iştirakçıları sırasında çəkilmişdir.

1944-cü ilin iyul ayında Triyest şəhəri Amerika-ingilis müttəfiq qoşunları tərəfindən azad edildikdən sonra yazıçının yolu alman əsirliyində olmuş digərləri ilə birgə Avstriya, Fransa, Yuqoslaviya, Misir, İraq və İran ərazisindən vətənə doğru keçir. Müqavimət hərəkatında iştirak etmiş əsirlərin özlərinin təşkil

etdikləri bölmədə S.Vəliyev Alay qərargahının rəisi seçilir. ABŞ kəşfiyyat orqanlarının vətənə dönən əsirlərin Sibirə göndəriləcəkləri barədə təbliğatlarına baxmayaraq, S.Vəliyev heç nədən çəkinmədən vətənə qayıdır. Amma həqiqətən də, növbəti sınaqlarla üzləşir. 1944-cü il dekabrın 30-da gələn keçmiş əsirləri Bakıda dustaq kimi qarşılayırlar. Saysız-hesabsız yoxlamalardan sonra 1945-ci il yanvarın 1-də Moskva yaxınlığındakı Podolsk şəhərindəki düşərgəyə salınan yazıçı ona qarşı yürüdülən bütün böhtanlardan təmiz çıxır, yenidən cəbhəyə, 29 saylı hücum batalyonuna təyin olunduqdan bir neçə gün sonra alman faşizmi üzərində qələbə xəbəri gəlir.

Bununla belə, Stalin rejimi keçmiş əsirlərə normal hüquqlu vətəndaş kimi baxmır, onların "cərimə" batalyonunu Çelyabinsk şəhərindəki Kirov adına sink zavodunda işləməyə yollayır. Burada "onbaşı" təyin olunan Süleyman Vəliyev əqidəli vətəndaş olduğunu sübut edir, hətta şəklini şərəf lövhəsinə vururlarsa da, azad olunmur. Qəlbi Vətənə qayıtmaq həsrəti ilə çırpınan yazıçı RSFSR Yazıçılar İttifaqı Çelyabinsk vilayət şöbəsinin rəhbəri Lyudmila Tatyaniçevaya müraciət edir. Bakıdan şair Əhməd Cəmilin imzası ilə S.Vəliyevin həqiqətən də Yazıçılar İttifaqının üzvü olmasını təsdiqləyən, hətta yaradıcılığı barədə də məlumat verən müsbət arayış gəlib çıxdıqdan sonra L.Tatyaniçeva Süleyman Vəliyevin zavoddan işdən azad edilməsinə və vətənə qayıtmasına nail ola bilir.

Həyatının həmin çətin dövrləri haqqında yazıçı ilk dəfə bütün açıqlığı ilə yalnız "Qanadı qırıq quş da uçarmış" (1989) bədii memuar-əsərində bəhs edir. Mülayimləşmə dövründə S.Vəliyev "Ərəb hekayələri" səpkisində Şərq ölkələrində gördüyü hadisə və süjetlərdən bəhs edən bir sıra hekayələr ("Əncir ağacı", "Nil suyu", "Bir salxım üzüm", "Dağılmış yurd" və s.) qələmə almışdır. "Əncir ağacı" kitabında (1959) dərc olunan həmin əsərlərlə yanaşı, kitabda yazıçının "İtaliya- Misir" xatirə oçerki də dərc olunmuşdur. Lakin daha böyük "tufanlar" Süleyman Vəliyevi vətəndə gözləyirmiş. Bu barədə də oxucular sonralar "Qanadı

qırıq quş da uçarmış” əsərində xəbər tutacaqdılar. “Süleyman 1946-cı ilin 10 oktyabrında Çelyabinskdən Bakıya qatara bilet alır. Lakin yemək pulu olmadığından o, Moskvada biletini satıb çörək almalı olur. Bakıya isə qatarların tamburunda gecələr biletsiz qayıdır. Beş günə Bakıya çatan Süleyman Ramanaya - evlərinə gedir. Həmin gün öyrənir ki, 1943-cü ildə atası və anası aclıqdan vəfat ediblər. Kənddəki evlərində başqa adamlar yaşayır”.

Böyük şair Səməd Vurğunun bilavasitə müdaxiləsi ilə S.Vəliyevə Bakıda mərkəzdə Tolstoy küçəsində ev verilir. “İnqilab və mədəniyyət” jurnalında ədəbi işçi kimi işə düzəlir. Lakin 1948-ci ildə başlanan növbəti repressiya dalğası keçmiş hərbi əsirlərdən də yan ötmür. S.Vəliyevi də istintaqa cəlb edir və jurnaldakı işindən çıxarırlar. Məxfi siyasi orqanlar ona əməkdaşlıq və Səməd Vurğunun “millətçiliyi” nə qarşı gizli işləmək təklif edirlər. Xarakter etibarilə mərd və əqidəli insan olan Süleyman Vəliyev belə bir alçaldıcı əməkdaşlıqdan imtina edir. Səməd Vurğun daim onun xeyirxahı olmuş, əsgərlikdə və müharibədə olanda ədəbiyyat fondu ata-anasına yardım etmişdir. Ata-anası vəfat edəndən sonra Süleymanın kiçik qardaşı Murtuzu Suvorovçular məktəbinə də Səməd Vurğun düzəltmişdi. Məhz taleyin istehzasıdır ki, 1949-cu ilin yayında Sibirin Lena çayı sahillərindəki qızıl mədənlərinin paytaxtı olan Bodaybo şəhərinə sürgün edilən yazıçı Sibir soyuğunda özünü mənəvi cəhətdən Bakıdan da yaxşı hiss etmişdir. Gizli sorğu-suallardan, mənəvi alçaldılmalardan qurtulan S.Vəliyev taleyin onun üçün hazırladığı imtahanlardan mərd-mərdanə çıxmışdı. Bu sırada ailəsi də ona dayaq olmuşdu. 1950-ci ildə oğlu Seyran, 1953-cü ildə isə qızı Leyla dünyaya göz açmışdır.

Zamanın ziddiyyətlərindən, eniş və yoxuşlarından keçən həyat yolunda ədəbiyyat həmişə Süleyman Vəliyev üçün bir dayaq rolunu oynamışdır. Hələ 1939-cu ildə Qərbi Ukraynada hərbi xidmətdə ikən cavan yazıçı bura görüşə gəlmiş görkəmli rus yazıçısı Aleksey Tolstoyla Lvov Yazıçılar İttifaqında elə əsgər

geyimində tanış olmuşdu. N.Ostrovskinin ev muzeyinə baş çəkən S.Vəliyev həmçinin Ukrayna yazıçıları Oleksa Desnyak, Paiç Petro, Vanda Vasilevskaya ilə də tanış ola bilmişdi. Yazıçının hərbi xidmətdən qayıtdığı 1940-cı ilin oktyabrında isə o, xalq şairi S.Vurğunun köməyi ilə Azərbaycan Yazıçılar İttifaqının Hərbi vətənpərvərlik şöbəsinin müdiri təyin olunmuşdu. SSRİ Yazıçılar İttifaqının uzun müddət sədri olmuş Georgi Markovla S.Vəliyev arasında ömürlərinin sonunacan davam edən dostluq münasibətləri olmuşdur.

Süleyman Vəliyev sovet dövrünün yazıçısı olsa da, zəmanəsinin ideologiyasını bölüşsə də, vətəninə sadiq, doğma Azərbaycan torpağına dərindən bağlı sənətkar idi. Cəsarətli yazıçı xalq mövqeyindən günün həqiqətlərini yazmaqdan, təsvir etmək-dən çəkinmirdi. Sürgündə üzləşdiyi gerçəklikləri o, hələ sovet ideologiyasının kəskin dövründə ayrı-ayrı əsərlərinə hopdurmağı bacarmışdır. "Şəlalə" hekayəsində Bodaybonun qılınc kimi kəsən şaxtalı günlərini, insanlar arasındakı mənəvi çarpışmaların təsvirini yazıçı inqilabdan əvvəlki dövrə keçirməklə təqdim edir. 1957-ci ildə işləyib "Səadət yollarında" adı ilə yenidən çap etdir-diyi "Bığlı ağa" povestində yazıçı Sibir həqiqətlərindən də danışır və bu zaman şəxsən yaşadığı həyat materiallarına əsaslanır.

1966-cı ildə Süleyman Vəliyevin "Düyünlər" romanı çap olu-nur. Roman Azərbaycan ədəbiyyatında repressiya olunmuşların taleyindən söz açan iri həcmli ilk əsərlərdən biri idi.

Süleyman Vəliyev onu ağrıdan əsl repressiya həqiqətlərini daha sonralar, artıq xatırlatdığımız kimi, 1980-ci illərdə qələmə aldığı "Qanadı qırıq quş da uçarmış" roman-memuarında etiraf və təsvir edir. Bu əsər həyat faktları və fakta yanaşma etibarilə ədə-biyyatımızda tamamən təzə olub, tarixi həqiqətlərin bədii formada bərpasına xidmət edirdi. Repressiya mövzusunda həqi-qəti söyləyən bu xətt ədəbiyyatımızda yalnız 1990-cı illərdə, müstəqillik dövründə davamını tapa bildi. O da təsadüfi deyil ki, Süleyman Vəliyev 1994-cü ildən Azərbaycanın Günahsız Siyasi Qurbanlar Assosiasiyasının rəyasət heyətinin üzvü seçilir, rəsmən

reabilitə olunur. Böyük bir dövr - sovet dönəmində Azərbaycan həqiqətlərinin nəsrdə ifadəçisi kimi əsərləri ədəbiyyatımızda layiqli yerini tutur.

Süleyman Vəliyev 1996-cı il martın 7-də Bakıda vəfat etmiş, xalqımızın iftixar mənbəyi olan insanların əbədiyyət tapdığı Fəxri xiyabanda dəfn olunmuşdur.

Süleyman Vəliyevin yazıçı əməyi daim dəyərləndirilmiş, Azərbaycan Rəyasət heyətinin fəxri fərmanı (1967-1986), "Xalqlar dostluğu" ordeni (1984) və medallarla təltif olunmuş, ədib Azərbaycan SSR əməkdar mədəniyyət işçisi (1977), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1987), əmək veteranı (1976), müharibə veteranı (1981) fəxri adlarını qürurla daşımışdır. Ömrü boyu dövrün, zamanın qarşısına çıxardığı çətinliklərlə üzləşən yazıçı bu təltifləri fədakar xalqının yaradıcılığına verdiyi qiymət kimi qəbul etmiş, eyni zamanda, xalqının həqiqətlərini fədakarcasına qələmə almışdır. Süleyman Vəliyevi oxucularına bu gün də sevdirən onun həqiqət dolu əsərləridir.

Zəhmətkeş yazıçı Süleyman Vəliyevin 105 - illik yubileyi münasibəti ilə kitabxana tərəfindən onlayn olaraq təşkil olunmuş tədbirlərdən biri də "Fərqlilər" adlı kompozisiyadır. **Kompozisiya** zoom proqramı vasitəsilə ilə həyata keçirilir və tədbirə ədəbiyyat müəllimləri, tarixçilər və yuxarı sinif şagirdləri dəvət olunur. Təyin olunmuş vaxtda virtual iştirakçılar kitabxana əməkdaşının çıxışı və onun təqdimatı ilə müəyyən ardıcıllıqla öz çıxışlarına keçid alırlar.

Bunun üçün onlayn tədbir haqqında məlumat kitabxananın müxtəlif adda sosial şəbəkələrində elan olunaraq oxucuların nəzərinə çatdırılır. Tədbirdə iştirak etmək istəyən oxucular kitabxananın sosial şəbəkə ünvanlarına onlayn şəkildə müraciət edərək tədbirə qatılırlar.

Kitabxanaçı: "Yazıçılıq-ülvi sənətdir. Mən deyərdim ki, sənin öz həyatın tarixdirsə, onda yazıçılığın daha ülvidir". Tomas Mannın bu fikrini görkəmli Azərbaycan yazıçısı Süleyman Vəliyevə və onun yaradıcılığına da aid etmək olar. Süleyman Vəliyev

nəcib, təvazökar insan idi. O bir vətəndaş yazıçı kimi öz qələminə sarılıb hey işləyib, işləməkdən hər zaman zövq alıb, əsərləri isə oxucularını daha da fərəhləndirib. Süleyman Vəliyev yazıçı əməyinin mürəkkəb psixoloji prosesini biləndir, yazdıqları, yaratdıqları ilə yaşayandır. Öz gözləri ilə gördüklərini elə-beləcə yox, yazıçı təxəyyülündən keçirib qələmə alandır. Əlbəttə, yazıçı inandırıcılığı, yazıçı təxəyülündən keçirib qələmə alandır və yazıçı inandırıcılığı, yazıçı həqiqəti onun üçün əsasdır. Azərbaycan ədəbiyyatının özünə xas fərdi, orijinal dəst-xətti vardır. Belə bir xüsusiyyətinə görə Süleyman Vəliyevin özünə və əməksevərliyinə də çoxcəhətli yaradıcılığına da hörmət edilir.

Tarixçi: 1930-cu illər ictimai-siyasi prosesinin ən böyük hadisəsi, heç şübhəsiz, Azərbaycan ədəbi mühitindən də yan keçməyən repressiyadır. Özlüyündə siyasi hadisə olan repressiya bir çox sahələr kimi, ədəbi prosesi də ağuşuna almış və tarixdə ilk dəfə Azərbaycan yazıçı, şair, tənqidçi, elm və maarif adamlarının kütləvi həbsi və məhvi ilə nəticələnmişdi. Bununla da siyasi iradə, qərar və qətnamələrlə idarə olunan ədəbi prosesə ölüm xofu, həbs qorxusu çökmüşdü.

Avtoritar rejimin və ona rəhbərlik edən diktatorlar - İ.V.Stalin və L.Beriyanın repressiya "sunamisi" bütün Sovetlər Birliyində, eləcə də Azərbaycanda yüzlərlə mütəfəkkiri, alimi, şair və yazıçını, folklorşünası, tənqidçini, heykəltaraşı, aktyoru həyatdan vaxtsız apardı: yalnız onların deyil, ailələrinin də faciəsinə səbəb oldu.

Repressiya (latınca-repressio) sözündən olub-cəza tədbirləri, dövlət tərəfindən həyata keçrilən cəzalandırma, təzyiq mənasındadır. Sovet imperiyasının başçıları, əsasən də Stalin və M.Bağırov tərəfindən törədilən qanlı hadisələr imperiyanın bütün ərazilərində olmuşdur. Kütləvi repressiyaların təşkilində türklərin qan düşməni olan ermənilərin xüsusi rolu olmuşdur. 1930-1950-ci illəri əhatə edən qanlı hadisələrdə xalqımızın minlərlə oğul və qızları xüsusi amansızlıqla qətlə yetrilmişdir. İnsanların həbs qərarı 15-20 dəqiqə içərisində verilirdi. Sonra isə ya güllələnirdi,

ya da Sibirə omürlük sürgünə göndərilirdi. Təkcə 1937-ci ildə Azərbaycanda 29 min nəfər "xalq düşməni" güllələndi və ya Sibirə sürgünə yollandı. Həmin ildə İsmayıllı, Şirvan, Cəbrayıl, Cəlillabad və b. rayonlarda keçrilmiş "gecə əməliyyatları" nəticəsində 70 min insan həbs olunaraq sürgün olundu, minlərlə insan isə qətlə yetirildi. Stalinin və onun əlaltılarının törətdiyi bu qətllər insanlığa qarşı törədilmiş cinayət idi. Bu faciədə Azərbaycan xalqı özünün yüksək milli intelektə malik oğul və qızlarının üç nəslini itirdi. Kütləvi repressiyaların təşkilində türklərin genetik düşmənləri olan ermənilər, xüsusən də daxili işlər orqanlarında rəhbər vəzifə tutan Sumbatov, Topuridze, Qriqoryan, Markaryan və b. mühüm rol oynamışdır.

Ədəbiyyat müəllimi: Yüksək keyfiyyətli sənədli əsər yazmağın özünəməxsus çətinlikləri var. Hər müəllif bunun öhdəsindən gələ bilmir. Süleyman Vəliyev bu sahənin də ustasıdır. Belə əsərlərdən biri "Usta Pirinin ulduzları" dır. Yazıçı S. Vəliyevin müvəffəqiyyətlərinin səbəbləri üzərində düşünəndə onun özü haqqında dediyi fikirləri xatırlayırıq: "Həyatı sevirəm, insanları sevirəm! Yaşadığım illər ərzində acılı-şirinli günlər keçirmişəm, həmişə də insana inanmışam. Elə buna gürədir ki, istər fərəhli anlarımda, istərsə də qüssəli dəqiqələrimdə adamlarla görüşmüşəm..."

Bu fikirlər sözgəlişi deyilməmişdir. Süleyman Vəliyev özünün bütün əsərləri öz böyük həyat təcrübəsinə, xalqının əmək və döyüş hünərlərinə bələd olmasına əsaslanır. Bəlkə də məhz buna görədir ki, Süleyman Vəliyevin kitablarında yaradılan obrazlar parlaq və inandırıcıdır.

Tədbirin sonunda iştirakçılar mövzu ilə əlaqəli fikirlərini bildirirlər.

Süleyman Vəliyevin yaradıcılığını oxuculara tanıtmaq və yazıçı qələmini sevdirmək üçün kitabxanada virtual olaraq keçirilən tədbirlərdən biri də "Əzabkeş yazıçı-Süleyman Vəliyev" adlı **"bibloqrafik icmal"** dır. İcmal zoom proqramı vasitəsilə ilə həyata keçirilir. Tədbirə ədibin yaradıcılığı ilə tanış olan, onun

kitablarını mütailə edən oxucular və b. qonaqlar dəvət olunur. Sözü gedən tədbir üçün kitabxanada qəlbi vətən üçün döyünən yazarın kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında oxucularla söhbət keçirir.

Kitabxanaçı: Müasir Azərbaycan nəsrinin sevilən imzalarından biri - Süleyman Vəliyev haqqında danışmaq bədii sözün sirlərinə bələdlik və zehni intelektuallıq tələb edir. Ədəbiyyatımıza bir sıra dəyərli əsərləri bəxş etmiş yazıçının bədii dünyası zənginliyi və təkrarsızlığı ilə diqqəti çəkib. Onun əsərlərində hər şey canlı təsir bağışlayır, inandırıcı görünür, insanı sehrinə salır, ovsunlayır, gülüş doğurur. Sözün dəyərini və çəkisini bildiyi üçün o, gərəksiz yerə yazmır, yazdıqlarının arxasında bəlli bir məram və niyyət durur. Bütün zamanlarda, istisnasız olaraq, yazıçının bədii qüdrəti ilə yanaşı, onun şəxsiyyəti, kimliyi, mövqeyi maraq doğurub, mübahisə obyektinə çevrilib. İnanırıq ki, daima, qərinələr ötsə belə onun əsərləri geniş oxucu kütləsinin diqqət və marağını çəkəcək, dəyişən, yeniləşən zamanla birlikdə təzəliyini, təravətini qoruyub saxlayacaqdır...

“Bığlı Ağa”, “Şor cüllütü” povestlərinin və “Mübahisəli şəhər” romanının müəllifi kimi tanınan yazıçı Süleyman Vəliyev öz hekayələri ilə oxucuların rəğbətini qazanmışdır. Yazıçının kitabındakı hekayələrin əksəriyyəti müasir həyatımızın müxtəlif sahələrinə-zəhmət adamlarına, ailə-məişət, böyüyə hörmət, dostluq kimi mühüm məsəslələrə həsr edilmişdir.

Müəllif ərəb və şərq ölkələrində yaşayan adamların həyatı, adət və ənənəsi ilə yaxından tanış olduğundan “Şərq hekayələri səpgisində bir sıra əsərlər yazmışdır. Bu əsərlərdə vaxtilə əsarət altına alınmış indi isə müstəqil dövlət qurmuş xalqların müstəmləkəçilərə qarşı kəskin mübarizəsi qələmə alınmışdır.

Kitabxanaçı sərgidə yer alan növbəti kitab haqqında məlumata keçid alır.

Yazıçının “Gül dəstəsi” kitabına daxil olan hekayələrin əksəriyyəti respublikamızın keçmişi, bu günü, qabaqcıl adamları, mədəniyyət xadimləri, alim və yazıçılarına həsr edilmişdir. Müəl-

lif “Xeyirxah insanlar” səpkisində yazdığı bu əsərlərdə yaxından tanıdığı adlı-sanlı, nəcib adamların surətini yaratmışdır.

S.Vəliyev Böyük Vətən müharibəsinin iştirakçısı olduğundan cəbhə həyatından da bir sıra hekayələr yazmışdır. O, bu hekayələrdə sovet döyüşçülərinin böyük, ağır sınaqlarından çıxdığını, misilsiz qəhrəmanlarını hərarətlə qələmə almışdır.

Görkəmli Azərbaycan yazıçısı Süleyman Vəliyev Azərbaycan, rus və digər xalqların dillərində nəşr olunmuş bir çox kitabın müəllifidir.

“Daşlı bulaq” kitabına daxil olan, povest və hekayələrdə, həmçinin sənədli əsərlərdə dərin sosial nikbinlik, əməyi, qəhrəmanlığı ilə təbiəti dəyişdirən və gözəlləşdirən sadə adamlara böyük məhəbbət əsas yer tutur.

“Daşlı bulaq” romanı Sibirin Vitim çayı sahilində sərt iqlim şəraitində yaşayan adamların həyatından bəhs edir. Əsəri qəhrəmanları Ayaz və onun nişanlısı Aybəniz romantik arzularla Bakıdan uzaq şimala gəlib məhəbbətin ülvi qüvvəsinə inanırlar.

Müəllif əsər boyu qəhrəmanlarının müxtəlif talelərini ön plana çəkib hərarətlə qələmə alır, oxucuda dərin təəsurat oyadır.

İsteadlı qələm sahibi Süleyman Vəliyevin “Seçilmiş əsərləri” nin birinci cildində “Mübahisəli şəhər” və “Düyünlər” romanı daxil edilmişdir. “Mübahisəli şəhər” romanı Böyük Vətən müharibəsində sovet, sloven və italyan partizanlarının həyatına, dostluğuna və onların faşizmə qarşı apardıqları mübarizəyə həsr edilmişdir. Müəllif müharibə illərində faciəli yollarla yad ellərə gedib çıxmış Aclanı Tirijest şəhərinin azadlığı uğrunda canlarından keçməyə hazır olan sovet partizanlarının bir nümayəndəsi kimi göstərmiş, italyan qızı Anita ilə məhəbbətini, onunla birlikdə faşizmə qarşı mübarizəsini ustalıqla qələmə almışdır. “Düyünlər” romanı neftçilərin həyatından bəhs edir. Hər iki roman azərbaycanca, rusca və başqa dillərə dəfələrlə çap olunmuşdur.

Görkəmli Azərbaycan yazıçısı Süleyman Vəliyevin “Həyatın dadı” kitabına daxil olan “Şor cüllütü” povesti inqilabdan əvvəl Bakının neft mədənlərində uşaqların kapitalistlərə qarşı apardığı

mübarizəyə həsr olunub. Povest uşaqların sevimli əsəri kimi indiyədək dəfələrlə rus və o dövrkü SSRİ xalqlarının dilində, o cümlədən Moskvada "Məktəb kitabxanası" seriyasında çap edilmişdir. Müəllif əsərlərində (o cümlədən sənədli hekayə və xatirələrində) yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyələnməsinə xüsusi fikir verərək müharibə və əmək qəhrəmanlarının keçdiyi ağır və şərəfli yolunu, ərəb ölkələrində yaşayan uşaqların həyatını hərarətlə qələmə almışdır. Süleyman Vəliyev gənc oxucuları respublikamızın gözəl tarixi guşələri, sevimli müəllimi, yazıçılarla və yaradıcılıq labaratoriyası ilə tanış edir. Süleyman Vəliyev "Qanadı sınmış quş da uçarmış" adlı kitabında şəxsiyyətə pərəstiş dövründə başına gələn qəza-qədəri, o dövrün dəhşətli günlərini ürək ağrısı ilə qələmə almışdır. Müəllifin "Qanlı ocaq" adlı yeni romanı isə Fələstin müqavimət hərəkatının qəhrəmanlarına həsr olunmuşdur. Kitabdakı povest və hekayələrdə Böyük Vətən müharibəsinin odlu-alovlu illəri müasir həyat və məişətimiz təsvir edilir. İstedadlı qələm sahibi Süleyman Vəliyevin "Mənə "sən" de" kitabına daxil olan povest və hekayələrin əksəriyyəti oxuculara yaxşı tanışdır. Bu əsərlərdə gənclərin arzu və əməlləri, saf məhəbbəti hərbi vətənpərvərlik, dostluq, gələcəyə inam əsas mövzunu təşkil edir. Yazıçı "Şor cüllütü" əsərini yazarkən onun 23 yaşı vardı. Bu əsərin taleyi uğurlu olmuş, əsər Azərbaycan, rus və başqa dillərdə yarım milyon tirajla nəşr edilmişdir. Gənc oxucuların həmişə sevə-sevə oxuduqları bu əsər ekranlara da qədəm qoymuşdur. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası "Şor cüllütü" povestinin motivləri əsasında "Qara gölün cəngavərləri" adlı film çəkmişdir.

S.Vəliyev çətin həyat yolu keçərək Böyük Vətən müharibəsində Müqavimət hərəkatında fəal iştirak etmişdir. O, əsərlərində əsasən yaşadığı, gördüyü hasdisələri qələmə almış, vətəndaşlıq qayəsi ilə parlaq və yaddaqalan obrazlar yaratmışdır.

Kitabxanaçının dəyərli məlumatından sonra onlayn tədbirə dəvət olunmuş oxucular onun əsərlərindən müxtəlif obraz və hadisələri canlandırırlar.

## Ədəbiyyat siyahısı


**1937**

**1.Bığlı ağa** / Süleyman Vəli.- Bakı: Azərnəşr, 1937.- 93 s.

**1939**

**2.Molla Məmiş və sandıq:** orta yaşlı uşaqlar üçün: hekayə /Süleyman Vəliyev; red. Y. Şirvan. - Bakı: Uşaqgəncnəşr, 1939.- 28 s.

**3.Şor cüllütü** /Süleyman Vəliyev; red. Y.Şirvan.- Bakı: Uşaqgəncnəşr, 1939. - 64 s.

**1957**

**4.Səadət yollarında:** povest, hekayə və oçerklər /Süleyman Vəliyev; red. Ş. Abasov.- Bakı: Azərnəşr, 1957.- 204 s.

**5.Şor cüllütü:** povest /Süleyman Vəliyev; red. R. Şıxəmirova .- Bakı: Uşaqgəncnəşr, 1957.- 88 s.

**1959**

**6.Əncir ağacı:** hekayələr, xatirələr /Süleyman Vəliyev; red. R. Şıxəmirova.- Bakı: Uşaqgəncnəşr, 1959.- 102 s.

**1962**

**7.Mübahisəli şəhər:** roman /Süleyman Vəliyev; red. Ə. Səbri .- Bakı: Azərnəşr, 1962.- 259 s.

**1963**

**8.Bir səhəng su:** hekayələr /Süleyman Vəliyev; red. Y. Məmmədov.- Bakı: Azərnəşr, 1963.- 89 s.

**1964**

**9.Məhəbbət buzu əridir:** sənədli povest /Süleyman Vəliyev; red. Ə. Cəfərova.- Bakı: Azərnəşr, 1964.- 92.

**1966**

**10.Seçilmiş əsərləri** /Süleyman Vəliyev; red. A. Cəfərova. - Bakı: Azərnəşr, 1966. - 535.(1) s.: şək.

**1969**

**11.Şor cüllütü:** povest /Süleyman Vəliyev; red. S. Məmmədova. - Bakı: Gənclik, 1969. - 64 s.

**1970**

**12.Düyünlər:** roman /Süleyman Vəliyev; red. N. Nağıyev.- Bakı: Azərnəşr, 1970.-259 s.

**1972**

**13.Gül dəstəsi:** hekayələr /Süleyman Vəliyev; red. Ş. Mirbağırova. - Bakı: Gənclik, 1972. - 190 s.

**1974**

**14.Mübahisəli şəhər:** roman və povest /Süleyman Vəliyev; red. N. Nağıyev. - Bakı: Azərnəşr, 1974. - 382 s.

**1978**

**15.Düyünlər:** hekayələr, povestlər, roman /Süleyman Vəliyev; red. S.Məmmədova. - Bakı: Gənclik, 1978. - 472 s.: şək.

**1980**

**16.Həyatın dadı:** povest və hekayələr /Süleyman Vəliyev; red. M. Namaz. - Bakı: Gənclik, 1980. - 276 s.

**1983**

**17.Daşlı bulaq:** roman, povestlər, sənədli hekayələr / Süleyman Vəliyev.- Bakı: Gənclik, 1983.- 360 s.: portr.

**18.Seçilmiş əsərləri**: 2 cilddə /Süleyman Vəliyev. - Bakı: Yazıçı, 1983. -C.1.-518 s.: şək.

**19.Seçilmiş əsərləri:** iki cilddə: povest və hekayələr /Süleyman Vəliyev .-Bakı: Yazıçı, 1983.- C.2.-436 s.

**1985**

**20.Mənə "Sən" de:** hekayələr və povest /Süleyman Vəliyev. - Bakı: Gənclik, 1985. - 328 s.

**1987**

**21.Daşlı bulaq** /Süleyman Vəliyev; ön sözün müəl. C. Əhmədov. – Bakı: Yazıçı, 1987.-688 s.

**1989**

**22."Qanadı sınmış quş" da uçarmış**: sənədli nəsr, roman, povest və hekayələr /Süleyman Vəliyev; red. Z. Əsgərov. - Bakı: Gənclik, 1989. - 427, [5] s. : portr., şək.

***Kitablarda***

**1976**

**23.Fəllahın arzusu; Nil suyu**: hekayələr // Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası: Nəsr. - Bakı: Gənclik, 1976.- S.205-208.

**2006**

**24.Dağlar ətəyində** //Azərbaycan nəsri antologiyası: 5 cilddə.: 1940-1950-ci illər. - Bakı: Şərq-Qərb, 2006.- C.4.- S.77-96.

***Dövri mətbuatda***

**2015**

**25.Həsən, Hüseyn və Sədəf:** hekayə // Göyərçin. - 2015. - № 1. - S. 4-5.

**2016**

**26.Qədir-qiymət:** hekayə // Savalan. - 2013. - 5-7 noyabr. - № 82. - S. 5. ; - 2016. - 11-21 noyabr. - № 51. - S. 3.

**2017**

**27.Süleyman Vəliyevin 100 illiyi qeyd olunub** / X. Xəlilova // Ədəbiyyat qəzeti. - 2017. - 14 yanvar. - № 1. - S. 19.

**Faciəli ömrün qəmli dastanını yazan ədib**
(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**